"AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# BÜLLETEN

№ 03 (43) ● Aprel 2016-cı il  www.azersu.az  Qaynar xətt - 955

"Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir"

*İlham Əliyev*

# BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir




*səh. 2*

## 2016-cı ilin birinci rübünün yekunlarına həsr olunmuş iclas keçirilmişdir



*səh. 4-5*

## "Pirşağı Çirkab Su Təmizləyici Qurğusu" üzrə podrat müqaviləsi imzalanmışdır



*səh. 7*

## Salyan şəhərinin içməli su təchizatı yaxşılaşdırılır



*səh. 9*

# BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir



***Aprelin 26-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak etmişlər. "İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında keçirilmiş foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılmışdır.***

Forumun açılışında Prezident İlham Əliyev qonaqları salamlayaraq belə mötəbər tədbirin Azərbaycanda keçirilməsinin böyük şərəf olduğunu, ölkəmizin multikulturalizm dəyərlərini uğurla yaydığını bildirmişdir. Prezident İlham Əliyev tolerantlığın və multikulturalizmin Azərbaycanda hər zaman hökm sürdüyünü xatırladaraq qeyd etmişdir ki, ölkəmizdə məscidlər, katolik və pravoslav kilsələri təmir olunur və qorunur. Bu da onu göstərir ki, multikulturalizm Azərbaycanda dövlət siyasətidir. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun multikulturalizm dəyələrinin təzahürü olduğunu deyən Prezident İlham Əliyev vurğulamışdır ki, dünyanın siyasi xadimləri bu müsbət dinamikaya dəstək verməlidirlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın ölkəmizin BMT tərəfindən tanınan ərazi bütövlüyünü pozduğunu, Dağlıq Qarabağı və ətraf rayonları işğal etdiyini xatırladaraq xalqımızın etnik təmizləməyə məruz qaldığını, bir milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrildiyini bildirmişdir. *"Ermənistan BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması ilə bağlı qətnamələrinə məhəl qoymur"*, - deyən dövlət başçısı vurğulamışdır ki, məsələnin həlli ilə əlaqədar işğflçı ölkəyə beynəlxalq təzyiq göstərilməli, münaqişə beynəlxalq hüququn normaları çərçivəsində nizama salınmalıdır.

Prezident İlham Əliyev qeyd etmişdir ki, son illər işsizliyin və yoxsulluğun azaldılması ilə bağlı ölkəmizdə ciddi tədbirlər görülüb, təhsil və səhiyyə problemləri uğurla həll olunub, gender bərabərliyinin təmin olunması, ekoloji problemlərin həlli istiqamətində tədbirlər həyata keçirilib. Ölkəmizin nəhəng enerji və nəqliyyat layihələrinin müəllifi və iştirakçısı olduğunu deyən Prezident İlham Əliyev çıxışının sonunda Forumun işinə uğurlar arzulamışdır.

**BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir** bildirmişdir ki, 2016-cı



ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi dünya xalqları arasında münasibətlərin möhkəmləndirilməsi yolunda mühüm addımdır. O, qeyd etmişdir ki, hazırda zorakı ekstremizmin aradan qaldırılması, dünyada zorakılıq hallarının azaldılması qarşıda duran vacib məsələlərdən biridir və bu missiyanın həyata keçirilməsində gənclərin dəstəyindən, onların fəaliyyətindən istifadə olunmalıdır.

**BMT-nin baş katibi Pan Gi Mun** videomüraciətində Bakıda bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq etmişdir. Hazırda dünyanın və insanların ciddi böhranlar yaşadığını deyən baş katib ayrıseçkiliyin və təcridolunmanın yalnız ekstremist arzuların yayılmasına xidmət etdiyini dedi və bu problemlərin həllində bütün cəmiyyətləri birgə səy göstərməyə çağırmışdır. Budəfəki Forumun mövzusunun BMT-nin 2030-cu ilədək elan etdiyi məqsədlərə uyğun olduğunu deyən Pan Gi Mun diqqəti bütün münaqişələrin sülh yolu ilə həllinin vacibliyinə cəlb etmişdir.

**İspaniyanın xarici işlər naziri Xose Manuel Qarsia Marqallo** Azərbaycan paytaxtını bütün dövrlərin informasiya mərkəzi kimi xarakterizə etmiş və bu səbəbdən Forumun burada təşkilinin təbii olduğunu dedi. İspaniya xarici siyasət idarəsinin rəhbəri terrorizm, ksenofobiya, zorakı ekstremizm kimi təhdidlərin qarşısının alınması ilə bağlı daha geniş tədbirlərin görülməsinin vacibliyini vurğulamışdır.

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan** növbəti dəfə Bakıya gəlməkdən məmnun olduğunu deyərək hazırda Sivilizasiyalar Alyansının BMT-nin ən önəmli qurumlarından birinə çevrildiyini bildirmişdir. Türkiyə Prezidenti Alyansın məqsədlərinə nail olunması istiqamətində görülən işlərin hələ də yetərli olmadığını da diqqətə çatdırmışdır. bildirdi. Qeyd etmişdir ki, dünyanın müxtəlif yerlərində baş verən qanlı toqquşmalar və terror aktları hələ də bizə çox işləməyin vacibliyini xatırladır. O, dünyada İslam dininə qarşı yönələn yanlış fikirlərin və təhdidlərin yolverilməz olduğunu, terror təşkilatlarını İslamla əlaqələndirməyin qətiyyən doğru olmadığını diqqətə çatdırdı. Rəcəb Tayyib Ərdoğan demişdir ki, bütün təhdidlərin qarşısı ancaq ortaq mübarizə sayəsində alına bilər və terrora qarşı qlobal mübarizə günümüzün ən vacib məsələlərindən biridir.

Forum işini plenar və bölmə iclasları, BMT-nin Sivilizasiyalar Alyansının yüksək səviyyəli toplantısı ilə davam etdirmişdir.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində keçirilən BMT Sivilizasiyalar Alyansının Dostları Qrupunun yüksək səviyyəli iclasında Bakı Bəyannaməsi qəbul olunmuşdur.

# Əhalinin böyük hissəsi Dünya Səhiyyə Təşkilatının normalarına uyğun su ilə təmin olunur



**Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

İclasın əvvəlində Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alaraq qəhrəmancasına şəhid olan Azərbaycan hərbçilərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Prezident İlham Əliyev şəhidlərin yaxınlarına səbr, yaralananlara şəfa diləyib.

Dövlət başçısı deyib ki, bu ayın əvvəlində cəbhənin təmas xəttində ermənilərin təxribatının qarşısı alınıb, düşmənə layiqli cavab verilib, hərbi mövqelərimiz daha da möhkəmləndirilib.

Prezident İlham Əliyev birinci rübdə iqtisadi islahatların sürətlə aparıldığını, biznes mühitinin yaxşılaşdırılması, ixrac potensialımızın artırılması, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, yerli istehsalın artırılması üzrə çox ciddi qərarlar qəbul edildiyini diqqətə çatdırıb.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan bütün iqtisadi-maliyyə sektoru aparıcı dövlətlərin təcrübəsinə əsaslanaraq ən mütərəqqi prinsiplər əsasında inkişaf etməlidir. İlk növbədə, idarəetmə mexanizmləri təkmilləşdirilməlidir, şəffaflıq tam şəkildə təmin edilməlidir.

Prezident İlham Əliyev qazlaşdırma, elektrik təchizatı, su təminatı, kənd yollarının tikintisi üzrə infrastruktur layihələrinin icrasının davam etdirildiyini diqqətə çatdırıb: *"İndi biz Bakıda möcüzələr yaradırıq ki, şəhərimiz gözəlləşsin, ekoloji vəziyyət yaxşılaşsın, insanlar sağlam olsunlar. İçməli su layihəsi həyata keçirilibdir. Dünyanın ən böyük ultrasüzgəcli sutəmizləmə qurğusu Azərbaycanda tikilib və istifadəyə verilibdir. İndi əhalimizin böyük hissəsi Dünya Səhiyyə Təşkilatının normalarına uyğun su ilə təmin olunur. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyan layihələrdir".*

Dövlət başçısı bildirib ki, bu il 40-dan çox kənd yolu layihəsinin icrası, nəqliyyat dəhlizlərində vahid tarif siyasətinin həyata keçirilməsi, Ələt dəniz limanının yaradılması istiqamətində əlavə tədbirlərin görülməsi, genişmiqyaslı ekoloji tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması diqqət mərkəzində saxlanılacaq.

# 2016-cı ilin birinci rübünün yekunlarına



***Aprelin 26-da “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin 2016-cı ilin birinci rübü üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir.***

İclası giriş sözü ilə açan **“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov** bildirmişdir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində 2016-cı ilin birinci rübündə Azərbaycanda dinamik inkişaf təmin olunmuşdur. Qlobal iqtisadi böhranın təsirlərinə baxmayaraq sosial və infrastruktur layihələrin icrası davam etdirilmişdir. İstehlakçılara göstərilən içməli su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Son vaxtlar cəbhə bölgəsində Ermənistan silahlı qüvvələrinin təxribatlarının qətiyyətlə alındığını xatırladan Səhmdar Cəmiyyətin sədri təmas xəttində ordumuzun daha əlverişli mövqelər əldə edərək möhkəmləndiyini diqqətə çatdırmışdır.

Qeyd olunmuşdur ki, 2016-cı ilin yanvar-mart aylarında istehlakçılara 66,7 milyon kubmetr həcmində su verilmiş, 47,2 milyon kubmetr həcmində kanalizasiya xidmətləri göstərilmişdir. Hesabat dövründə 170 km içməli su, 138 km kanalizasiya xətləri çəkilmiş, 2 su anbarı tikilmiş, 4 ədəd subartezian quyusu qazılmışdır. Ötən ilin eyni dövrü ilə müqayisədə abonent sayı 52,4 min artmış, sayğaclaşma səviyyəsi 62,5 faizə yüksəlmişdir.

Qorxmaz Hüseynov bildirmişdir ki, dövlət başçısının əhalinin 24 saat fasiləsiz və keyfiyyətli içməli su il təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Bakı şəhəri və Abşeron yarımadasında, eləcə də respublikanın şəhər və rayon mərkəzlərində layihələrin icrası davam etdirilmişdir: ***“Beynəlxalq layihələr çərçivəsində Qusar və Tərtər şəhərlərində tikinti-quraşdırma işlərinin böyük hissəsi icra edilmiş və son mərhələyə qədəm qoymuşdur. Uzun illər içməli sudan əziyyət çəkən Salyan şəhərinin su təchizatının yaxşılaşdırılması məqsədilə Şirvan-Muğan qrup su kəmərindən magistral xəttin tikintisinə başlanılmışdır. Eyni zamanda Masallı rayonunun 5 kəndini keyfiyyətli içməli su ilə təmin etmək üçün layihənin icrası davam etdirilir və tezliklə həmin kəndlərə suyun verilməsi təmin ediləcəkdir.”***

Sonra **“Azərsu” ASC-nin**



**İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi Elçin Camalov** çıxış edərək bildirmişdir ki, hesabat dövründə su təchizatı və kanalizasiya infrastrukturunun yenidən qurulmasına 94,1 mln manat investisiya qoyulmuşdur. İnvestisiyaların 23,5 mln manatını büd-



# həsr olunmuş iclas keçirilmişdir

cə vəsaiti, 71,1 mln manatını dövlət zəmanəti ilə alınmış kreditlər, 500 min manatını daxili imkanlar hesabına vəsaitlər təşkil etmişdir. Bu müddətdə su təchizatı və kanalizasiya xidmətləri üzrə gəlirlər 30 mln manat, sair gəlirlər 2 mln manat olmuşdur. Hesabat dövründə Cəmiyyət üzrə əmək haqqı fondu 16,8 mln. manat, işçilərin orta aylıq əmək haqqı isə 441,5 manat təşkil etmişdir. İşçilərin sayı 799 nəfər artaraq 12704 nəfərə çatmışdır.

**Su təchizatı sistemlərinin idarə olunması şöbəsinin rəisi Məmmədrəsul İlyasov** hazırda "Azərsu" ASC tərəfindən 4,3 milyon nəfərə xidmət olunduğunu



bildirmişdir. Birinci rübdə 13092 nəfərin su təchizatı yaxşılaşdırılmış, 6913 nəfər isə 24 saat fasiləsiz su ilə təmin edilmişdir. Hazırda Bakı şəhəri və Abşeron rayonunda 2 milyon 511 min nəfər əhaliyə içməli su xidməti göstərilir. 2016-cı ilin birinci rübü ərzində Bakı şəhəri və Abşeron rayonunda 9842 nəfərin su təchizatı yaxşılaşdırılmış, 5234 nəfər isə fasiləsiz su ilə təmin edilmişdir. İlk dəfə su alan əhalinin sayı 11881 nəfər olmuşdur.

**Tender və beynəlxalq layihələrin idarə olunması departamentinin rəisi İlqar Tağıyev** çıxış edərək bildirmişdir ki, hesabat dövründə beynəlxalq layihələr çərçi-



vəsində 22 şəhər və rayon mərkəzində, o cümlədən Bakıətrafı 3 qəsəbədə layihələr icra olunmuşdur. İ.Tağıyev ayrı-ayrı şəhərlər üzrə layihələrin icra vəziyyəti barədə göstəriciləri açıqlamış, tender prosedurları və növbəti mərhələlərdə görüləcək işlər barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, görülmüş işlərin davamı olaraq gələcəkdə gecikmələrin aradan qaldırılması və öhdəliklər üzrə məsuliyyətin artırılması istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçiriləcəkdir.

**Müştəri xidmətləri şöbəsinin rəisi Rövşən Kazımov** kommersiya sahəsin-



də aşkarlanmış nöqsanlar barədə məlumat verərək bildirmişdir ki, bəzi yerli sukanal idarlərində müştəri xidmətləri sahəsində iş düzgün təşkil edilməmişdir. Xüsusilə satış, debütor borc və ödəmə sahəsində bəzi sukanal idarələri fəaliyyətini günün tələbləri səviyyəsində qura bilməmişdir. R.Kazımov həmin nöqsanların aradan qaldırılması üçün məsuliyyətin artırılmasının vacibliyini diqqətə çatdırmışdır.

**"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov** iclasa yekun vuraraq görüləcək işlər və qarşıda duran vəzifələr barədə tapşırıqlarını vermişdir. Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində işlərin davam etdiriləcəyini deyən Səhmdar Cəmiyyətin sədri yeni texnologiyaların tətbiqi ilə bağlı tədbirlərin görülməli olduğunu vurğulamışdır. "Azərsu" ASC-nin sədri su itkilərinin azaldılması məqsədi ilə abunəçilərlə işin təkmilləşdirilməsi, içməli sudan qeyri-qanuni istifadə hallarının azaldılması sahəsində tədbirlərin davam etdirilməsi barədə ciddi tapşırıqlar vermişdir.



# Dünya su sənayesinə dəyərli töhfə

## *Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi 2016-cı ildə dünya su sənayesinin ən önəmli layihələrindən biri seçilmişdir*

***19-20 aprel 2016-cı il tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu Dabi şəhərində keçirilmiş Qlobal Su Sammitində Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi dünya su sənayesinə verilən dəyərli töhfə kimi qiymətləndirilmişdir.***

Abu Dabi şəhərində təşkil olunmuş sammitə dünyanın müxtəlif ölkələrindən dövlət və özəl qurumlarının rəsmiləri ilə yanaşı, Su Təsərrüfatı Liderləri Qrupunun üzvü qismində Azərbaycan da dəvət almışdır. Beynəlxalq tədbirdə ölkəmizi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin rəsmilərindən ibarət nümayəndə heyəti təmsil etmişdir.

Budəfəki sammitin əsas özəlliyi dünyada ilin ən önəmli 4 iri su layihəsinin müəyyənləşdirilməsi olmuşdur. Qlobal Su Təsərrüfatı Liderləri qrupunun 2500 üzvünün iştirakı ilə keçirilən səsvermədə ABŞ, İordaniya və Konqoda tətbiq olunan yeni sutəmizləmə üsulları ilə yanaşı, Azərbaycana məxsus Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi 2016-cı ildə dünya su sənayesinin ən önəmli layilərindən biri seçilmişdir.

Sammitdə çıxış edən **ABŞ Ağ Ev Administrasiyasının su işləri ofisinin rəhbəri Ali Zaidi** qlobal su problemləri mövzusunda etdiyi məruzədə yeni texnologiyalara əsaslanan sutəmizləyici qurğulardan istifadənin əhəmiyyəti barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, hazırda dünyada içməli su ehtiyatları və mənbələrdən məqsədyönlü istifadə ilə bağlı ciddi problemlər var. Ağ Ev rəsmisi belə aktual məsələyə həssaslıqla yanaşan və su ehtiyatlarının qorunması istiqamətində kompleks layihələr icra edən dövlətlərə Su Təsərrüfatı Liderləri Qrupu adından minnətdarlığını bildirmişdir.




Sammit iştirakçıları Azərbaycan, Konqo, İordaniya və ABŞ-a məxsus yeni sutəmizləyici qurğu kompleksləri haqqında videoçarxlar, həmçinin nəşr nümunələri ilə tanış olmuşlar.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, **"Azərsu" Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Teyyub Cabbarov** Ceyranbatan Sutəmizləyici Qurğular Kompleksinin fəaliyyəti və layihə ilə bağlı görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. T.Cabbarov bildirmişdir ki, əhalinin keyfiyyətli içməli su ilə təmin olunması və su ehtiyatlarından səmərəli istifadə Azərbaycan dövlətinin prioritet hesab etdiyi sahələrdəndir. Dünyanın ən müasir təmizləmə sistemlərinin tətbiq olunduğu Ceyranbatan Sutəmizləyici Qurğular Kompleksində saniyədə 6,6 kubmetr yüksək keyfiyyətli içməli su istehsal olunur. Ənənəvi təmizləmə qurğularından fərqli olaraq burada su ultrasüzgəc texnologiyasına uyğun ən yüksək səviyyədə, heç bir kimyəvi təmizlənmə aparılmadan tam qapalı, avtomatik rejimdə mexaniki üsulla təmizlənir və istehlakçılara verilən suyun təbii mineral tərkibi tam qorunub saxlanılır. Ultrasüzgəclərdə aparılan təmizləmə zamanı su bakteriya, virus, bəzi həll olunmamış duzlar və ağır metallardan təmizlənir, bulanıqlıq, xoşagəlməz iy və dad aradan qaldırılır. Burada emal edilən su Dünya Səhiyyə Təşkilatının, digər beynəlxalq qurumların qəbul etdiyi standartlara tam cavab verir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır ki, kompleksdə bütün texnoloji proseslər – suyun qəbulu, həcmi, təzyiqi, təmizlənməsi, hər bir mərhələdə keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması tam avtomatlaşdırılmışdır. Emal prosesinin məsafədən idarə edilməsi üçün Mərkəzi idarəetmə - SCADA sistemi yaradılmışdır. Kompleksin tikintisində dünyanın inkişaf etmiş ölkələrinin bu sahədə ixtisaslaşmış şirkətlərinin avadanlıqlarından və cihazlarından istifadə olunmuşdur.

Qlobal Su Təsərrüfatı liderləri sammit çərçivəsində Birgə Fəaliyyət Planı haqqında müzakirələr aparmış, dünya əhalisinin içməli suya olan tələbatının ödənilməsinin perspektivlərini araşdırmışlar.

Xatırladaq ki, 2015-ci ildə "Qlobal Su təsərrüfatı liderləri" Qrupunun təşkilatçılığı ilə Yunanıstanın paytaxtı Afinada keçirilmiş sammitdə kommunal sahədə nailiyyətlərə və göstərilən yüksək xidmətə görə "Azərsu" ASC "Qlobal Su təsərrüfatı liderləri" Qrupu tərəfindən 2015-ci ilin "Su Liderləri" nominasiyasında mükafata layiq görülmüşdür.

# “Pirşağı Çirkab Su Təmizləyici Qurğusu” üzrə podrat müqaviləsi imzalanmışdır

*Aprelin 5-də Azərbaycan Respublikası hökuməti və Koreya Respublikası İxrac-İdxal Bankının birgə maliyyələşdirdiyi “Pirşağı Çirkab Su Təmizləyici Qurğusu” layihəsi üzrə podrat müqaviləsinin imzalanma mərasimi keçirilmişdir. Müqavilə “Azərsu” ASC ilə beynəlxalq tenderin qalibi Koreya Respublikasının “Hansol” EME Co LTD şirkəti arasında imzalanmışdır.*





İmzalanma mərasimində **“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov** ölkə əhalisinin keyfiyyətli və fasiləsiz içməli su, həmçinin kanalizasiya xidmətləri ilə təmin olunmasını Prezident İlham Əliyevin daim diqqətdə saxladığını və bəzi layihələrin beynəlxalq maliyyə qurumları ilə birgə reallaşdırıldığını qeyd etmişdir: *“Bu sahədə Koreya Respublikasının maliyyə qurumları və şirkətləri ilə əməkdaşlıq xüsusi qeyd edilməlidir. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə həyata keçirdiyimiz layihə çərçivəsində qısa müddətdə Kürdəxanı qəsəbəsinin içməli su təchizatı sistemi yenidən qurulmuşdur. Növbəti qrant layihəsi çərçivəsində Beyləqan rayonunun Xocavənd qəsəbəsində su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi icra olunacaqdır. Pirşağı qəsəbəsinin yaxınlığında tikiləcək çirkab sutəmizləyici qurğunun inşası Abşeron yarımadasının kanalizasiya infrastrukturunun inkişafına töhfə verəcəkdir”.*

**“Hansol” EME Co LTD şirkətinin vitse-prezidenti Hi-Jun Cho** Azərbaycanda həyata keçirilən su və kanalizasiya layihələrində iştirakdan məmnunluğunu ifadə etmiş, layihənin qısa müddətdə və keyfiyyətlə icra edilməsi üçün bütün imkanlardan istifadə olunacağını bildirmişdir.

“Pirşağı Çirkab Su Təmizləyici Qurğusu” layihəsi çərçivəsində sutkalıq məhsuldarlığı 40 min kubmetr olan müasir tipli bioloji tullantı təmizləyici qurğu tikiləcəkdir. Müasir standartların tələblərinə uyğun olaraq qurğunun qapalı rejimdə layihələndirilməsi, yarana biləcək qoxunun neytrallaşdırılması üçün xüsusi biosüzgəclərdən istifadə olunması nəzərdə tutulur.

Pirşağı çirkab sutəmizləyici qurğusunun tikintisi Xəzər dənizinin ekoloji təhlükəsizliyinin qorunmasına böyük töhfə verəcəkdir. Yeni qurğu istismara verildikdən, ətraf qəsəbələrdə kanalizasiya infrastrukturu yaradıldıqdan sonra Abşeron yarımadasının şimal-şərq hissəsində böyük bir ərazidə yaranan tullantı sularının birbaşa Xəzər dənizinə axıdılmasının qarşısı alınacaqdır. Gələcəkdə Pirşağı, Kürdəxanı, Məhəmmədi, Nardaran, Digah, Maştağa və digər yaşayış məntəqələrinin tullantı suları bu qurğuda təmizlənərək kənarlaşdırılacaqdır.

Podrat müqaviləsi üzrə tikinti-quraşdırma işlərinin 2016-cı ilin III rübündə başlanılması və 2018-ci ildə yekunlaşması planlaşdırılır. Qeyd edək ki, “Pirşağı Çirkab Su Təmizləmə Qurğusu” layihəsinin maliyyələşdirilməsi üçün Koreyanın İxrac-İdxal Bankı 43,5 milyon dollar kredit ayırmışdır və bununla bağlı kredit sazişi 2014-cü ildə imzalanmışdır.

# Asiya İnkişaf Bankının nümayəndə heyəti ilə görüş keçirilmişdir

*Aprelin 12-də “Azərsu” Açıq Səhmdar Cəmiyyətində Azərbaycanda səfərdə olan Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Şon Sullivanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.*

**“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov** Asiya İnkişaf Bankının ölkəmizdə həyata keçirilən infrastruktur layihələrində yaxından iştirak etdiyini xatırladaraq bankın su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrində iştirakını yüksək qiymətləndirmişdir. Səhmdar Cəmiyyətin sədri “Su təchizatı və kanalizasiya investisiya proqramı” çərçivəsində Göyçay şəhərində içməli su və kanalizasiya şəbəkələrinin tamamilə yenidən qurulduğunu xatırladaraq qeyd etmişdir ki, layihənin icrası nəticəsində əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşmışdır. Layihənin əhatə etdiyi Ağdaş və Beyləqan şəhərlərində isə tikinti-quraşdırma işləri yekunlaşma ərəfəsindədir.



**Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Şon Sullivan** “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı”nın icrasından razılığını bildirmiş və əlavə etmişdir ki, təmsil etdiyi bank bundan sonra da Azərbaycanda içməli su və kanalizasiya infrastrukturlarının yenidən qurulması layihələrinin maliyyələşdirilməsində iştirak etməkdə maraqlıdır.

Görüşdə “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı”nın icrası və növbəti mərhələlərdə maliyyələşdiriləcək işlər haqqında ətraflı müzakirələr aparılmışdır.

Qeyd edək ki, Azərbaycan hökumətinin Asiya İnkişaf Bankı ilə birgə maliyyələşdirdiyi “Şəhər su təchizatı və kanalizasiya layihəsi” və “Su təchizatı və kanalizasiya investisiya proqramı” çərçivəsində Göyçay, Ağdaş, Beyləqan və Ağcabədi şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması nəzərdə tutulur.

Bu layihə çərçivəsində Göyçay şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi başa çatmış, çirkab sutəmizləyici qurğunun tikintisinə hazırlıq gedir.

Ağdaş və Beyləqan şəhərlərində isə tikinti-quraşdırma işlərinin böyük hissəsi yekunlaşmışdır.

Ağcabədi şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə tender keçirilmiş və 2016-cı ildə işlərə başlanılacaqdır.

# Smart sayğacların quraşdırılması məqsədilə tender elan edilmişdir

*“İstehlakçıların suölçən cihazlarla təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 mart 2016-cı il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrasına başlanılmışdır. “Azərsu” Açıq Səhmdar Cəmiyyəti əhali qrupu istehlakçılarının smart tipli suölçən cihazlarla təmin edilməsi məqsədilə tender elan etmişdir.*

Sərəncama əsasən, əhali qrupu istehlakçıların suölçən cihazlarla təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan “Azərsu” ASC-yə 12 milyon manat ayrılmışdır.

Tenderin şərtlərinə görə, sayğaclar Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda quraşdırılacaq. Ümumilikdə sayğaclaşma işləri 36052 həyət, 13948 bina evi üzrə aparılacaqdır. Sayğacların quraşdırılması işlərinin 2016-cı ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulub.

Qeyd edək ki, istehlakçıların smart tipli suölçən cihazlarla təmin olunması işlərinə 2012-ci ildən başlanılmışdır. 01 aprel 2016-cı il tarixə olan məlumata görə “Azərsu” ASC tərəfindən 417550 smart sayğac quraşdırılmışdır. Quraşdırılmış sayğacların 381381 ədədi əhali, 36169 ədədi isə qeyri əhali qrupu abunəçilərinin payına düşür. Ötən müddətdə Bakı şəhəri və Abşeron yarımadasında 244997, regionlarda isə 172553 ədəd smart sayğac quraşdırılmışdır.

# Salyan şəhərinin içməli su təchizatı yaxşılaşdırılır



***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bölgələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri davam etdirir.***

Prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarının fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq Salyan şəhərinin daha keyfiyyətli su ilə təmin olunması üçün təxirəsalınmaz tədbirlərin icrasına başlanılmışdır. Plana uyğun olaraq, Şirvan-Muğan qrup su kəmərindən Salyan şəhərinə yeni magistral xəttin tikintisini, həmçinin Salyan şəhərinin bəzi küçələrində yeni paylayıcı şəbəkənin yaradılmasını nəzərdə tutlur. Layihə çərçivəsində 1,4 km uzunluğunda magistral, 2 km uzunluğunda paylayıcı xətlərin inşasına başlanılmışdır.



Aprel ayının ikinci yarısından layihənin icrasına başlanılmış və qısa müddət ərzində 710 mm diametrli magistral kəmərin 750 metrdən artıq hissəsinin tikintisi yekunlaşmış, eyni zamanda şəhərdaxili şəbəkədə müxtəlif diametrli borularla 800 metr uzunluğunda yeni xətt inşa edilmişdir. Təsdiqlənmiş tədbirlər planına uyğun olaraq layihə üzrə işlərin iyun ayında tam başa çatdırılması nəzərdə tutulmuşdur. İşlər başa çatdıqdan sonra yeni çəkilmiş magistral xətt mövcud şəbəkəyə birləşdiriləcək və bununla da Salyan şəhərinin 12 mindən artıq sakini Kür Sutəmizləyici Qurğularında emal olunan keyfiyyətli içməli sudan istifadə edəcəklər. Şəhərə yeni mənbədən suyun verilməsi təmin edildikdən sonra 1972-ci ildən istismarda olan sutəmizləyici qurğunun, həmçinin 3 ədəd nasos stansiyasının fəaliyyəti dayandırılacaqdır.

Şirvan-Muğan qrup su kəmərinin təməli 16 iyul 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulmuşdur. Şirvan-Muğan qrup su kəmərinin mənbəyi Kür su kəmərləri sistemidir.

Layihəyə əsasən, ümumi uzunluğu 107 km olan Şirvan-Muğan su kəmərinin Hacıqabuldan Salyan rayonuna qədər olan 52 km-lik hissəsi 1220 mm və 1020 mm diametrli polad, Salyandan Biləsuvar rayonuna qədər olan 52 km-lik hissəsi isə 710 mm diametrli polietilen borularla çəkilmişdir. Kəmərin keçdiyi ərazilərdə əhalinin dayanıqlı içməli su ilə təmin edilməsi məqsədi ümumi tutumu 50 min kubmetr olan "+80 Hacıqabul", "+55 Şirvan", "+25 Salyan" və "-8 Biləsuvar" su anbarlar kompleksləri inşa olunmuşdur.

Prezidenti İlham Əliyevin iştirakı ilə magistral kəmərdən 2013-cü ilin aprelin 15-də Hacıqabul, iyulun 1-də Şirvan, sentyabrın 4-də isə Biləsuvar şəhərlərinə içməli suyun verilməsinin açılış mərasimləri keçirilmişdir.

Magistral kəmərin tam istismara verilməsi ilə Hacıqabul, Şirvan, Salyan, Neftçala və Biləsuvar şəhərlərinin, həmçinin 121 kəndin 470 min nəfər sakini keyfiyyətli və fasiləsiz içməli su ilə təmin olunacaqdır.



# Kollektiv saziş imzalanmışdır

*"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi arasında 2016-2018-ci illər üzrə sahə kollektiv sazişi imzalanmışdır. Saziş işçilərin əmək və sosial hüquqlarının, qanuni mənafelərinin daha etibarlı müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.*



Yeni sazişin hazırlanmasına işəgötürən və həmkarlar təşkilatının mütəxəssisləri cəlb olunmuş, əvvəlki müqaviləyə bir sıra əlavə və dəyişikliklər edilmişdir. Saziş əmək kollektivinin iş şəraitinin yaxşılaşdırılması, əməyin ödənilməsi, mühafizəsi, işçilərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə qarşılıqlı maraqlar əsasında hazırlanmış, tərəflərin müzakirəsinə çıxarılmışdır.

Sənədə edilən dəyişikliklərdə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələbləri nəzərə alınmış, işçilər üçün bir sıra güzəşt və imtiyazlar müəyyən edilmişdir. Sənədə əsasən, ali və orta ixtisas təhsili müəssisələrində oxuyan işçilərə hər tədris ili üçün qanunvericilikdə nəzərdə tutulan müddətdən əlavə 10 təqvim günü ödənişli təhsil məzuniyyəti verilir. Eyni zamanda yeni ailə quran, övladı ilk dəfə orta məktəbə gedən, ailə üzvü və ya yaxın qohumu vəfat edən işçilərə ödənişli məzuniyyət günləri veriləcək.

Kollektiv sazişə əsasən, müəssisənin, idarənin, təşkilatın işçilərinin sayının ixtisarı zamanı qanunvericilikdə nəzərdə tutulan hallardan əlavə işdə saxlanmaq üstünlükləri də nəzərdə tutulub. Belə ki, yaşa görə əmək pensiyasına çıxmağa 3 ili qalan, təşkilatda 15 ildən artıq işləyən, himayəsində birinci qrup əlil ailə üzvü olan, 3 və daha artıq azyaşlı uşağı olan işçilərə işdə saxlanma üstünlüyü verilir.

Eyni zamanda, işçi əmək funksiyasını tam və ya qismən yerinə yetirmədikdə, keyfiyyətsiz icra etdikdə aylıq əmək haqqının 20 faizi məbləğindən çox olmamaq şərti ilə cərimənin tətbiqi nəzərdə tutulmuşdur.

Qeyd edək ki, kollektiv saziş Əmək Məcəlləsinin bir çox maddəsində öz əksini tapmışdır. Məcəlləyə əsasən, kollektiv saziş müvafiq icra hakimiyyəti orqanı, həmkarlar ittifaqı və işəgötürənlərin birlikləri arasında işçilərin əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi, məşğulluğun təmin edilməsi və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi sahəsində birgə fəaliyyətə dair tərəflərin öhdəliklərinin müəyyən edilməsi məqsədilə bağlanır.

# "Azərsu" ASC "ASAN xidmət"də vətəndaşlara yüksək səviyyədə xidmət göstərir



*"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzlərində təmsil olunması istehlakçılara göstərilən müştəri xidmətlərinin asanlaşdırılmasına və bu sahədə şəffaflığın artırılmasına səbəb olmuşdur.*

2016-ci ilin yanvar-mart aylarında "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən "Azərsu" ASC-nin xidmət bölmələrinə vətəndaşlar tərəfindən müxtəlif məsələlərlə bağlı 4523 müraciət edilmişdir. Müraciətlərin 797-i qeydiyyatda olan və "Azərsu" ASC-nin abonent bazasında təsdiqini tapmış məcburi köçkün qrupuna aid abonentlərin limitlərinin smart-karta yüklənməsi ilə bağlı olmuşdur. Bununla yanaşı, 813 müraciət abonent məlumatlarına dəyişikliklərin edilməsi, 921 müraciət itirilmiş və zədələnmiş kartların bərpası, 423 müraciət ödəniş zamanı yaranan texniki problemlər, 762 müraciət isə smart kartlara yükləmələr haqqında məlumatların verilməsi, 807 müraciət isə digər məsələlərlə bağlı olmuşdur.

Ən çox müraciət (1545) Sabunçu rayonundakı 4 saylı "ASAN xidmət mərkəzində qeydə alınmışdır.

Qeyd edək ki, "ASAN xidmət" mərkəzlərində "Azərsu" ASC-nin müştəri xidmətlərinin göstərilməsinə 2014-cü ilin may ayından etibarən başlanılmışdır. Hazırda "Azərsu" ASC-nin xidmətləri Bakı şəhəri Nərimanov rayonu ərazisində yerləşən 1, Xətai rayonundakı 2, Yasamal rayonundakı 3, Sabunçu rayonundakı 4 və Nizami rayonundakı 5 saylı, həmçinin Sumqayıt və Sabirabad şəhələrindəki "ASAN xidmət" mərkəzlərində təşkil olunmuşdur.

Ümumilikdə "ASAN xidmət" mərkəzlərində "Azərsu" ASC-nin müştəri xidmətlərinin göstərilməsinə başlanılandan ötən dövr ərzində müraciətlərin sayı 30 mini keçmişdir.

# Onun əziz xatirəsinə



"Azərsu" ASC-yə ağır itki üz vermişdir. Cəmiyyətin "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun elmi işlər üzrə direktor müavini, tanınmış alim, geologiya-mineralogiya elmləri doktoru, Azərbaycan Respublikasının "Əməkdar mühəndisi" Adışirin Balaşirin oğlu Ələkbərov 2016-cı il mayın 2-də ömrünün 61-ci ilində faciəli şəkildə vəfat etmişdir.

Adışirin Ələkbərov 1955-ci il noyabrın 25-də Bakı şəhərində anadan olmuşdur. 1976-cı ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirdikdən sonra Azərbaycan Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsində əmək fəaliyyətinə başlamış, 1976-1992-ci illərdə geoloji-kəşfiyyat partiyalarında hidrogeoloq, baş hidrogeoloq, partiya rəisi vəzifələrində işləmişdir. 1992-1993-cü illərdə Azərbaycan Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi Hidrogeologiya Ekspedisiyasının rəisi, 1993-2002-ci illərdə Azərbaycan Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi Hidrogeologiya və Mühəndis Geologiyası İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 2002-2005-ci illərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Kompleks Hidrogeologiya və Mühəndis Geologiyası Ekspedisiyasının rəisi vəzifəsində fəaliyyət göstərmişdir.

Adışirin Ələkbərovun əmək fəaliyyətinin 2006-cı ildən sonrakı dövrü "Azərsu" ASC ilə bağlı olmuşdur. 2006-2014-cü illərdə "Azərsu" ASC-də baş mütəxəssis, şöbə rəisi, departament rəisinin müavini vəzifələrində çalışmış, 2014-cü ildən "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində fəaliyyət göstərmişdir.

1986-cı ildə geologiya-mineralogiya üzrə namizədlik, 2004-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə edən alim Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunun aparıcı elmi işçisi idi.

Geologiya-mineralogiya elmləri doktoru Adışirin Ələkbərov Azərbaycan Respublikası ərazisinin hidrogeoloji, mühəndisi-geoloji, geoekoloji öyrənilməsi, yeraltı su yataqlarının ehtiyatlarının qiymətləndirilməsi və onlardan səmərəli istifadə olunması imkanlarının araşdırılması, ekzogen geoloji proseslərin tədqiqi, o cümlədən sürüşmələr, subasmalar, torpaq çökmələri, ətraf mühitin mühafizəsi məsələləri, yeraltı suların monitorinqinin təşkili ilə bağlı tədqiqatlar aparmış, bu sahədə elmi işlərə rəhbərlik etmişdir. Tanınmış alim çoxsaylı monoqrafiyaların, xəritələr atlasının, 70-dən çox elmi işin, 30-a qədər elmi-texniki hesabatın müəllifi olmuşdur. Professor Adışirin Ələkbərovun fundamental araşdırmaları və əldə etdiyi nailiyyətləri ilə respublikada elmin inkişafına sanballı töhfələr vermişdir. Onun tədqiqatları geologiya elmi qarşısında duran bir sıra aktual problemlərin həllinə xidmət etmişdir.

Azərbaycan Respublikasının su ehtiyatlarının tədqiqi, içməli su mənbələrinin öyrənilməsi və işlənilməsi sahəsində Adışirin Ələkbərovun apardığı araşdırmalar ölkəmizin su təsərrüfatı sektoruna dəyərli töhfələr vermişdir.

Adışirin Ələkbərov Hidrogeoloqların Beynəlxalq Asossiasiyası, Beynəlxalq Mineral Ehtiyatlar Akademiyası, Dünya Su Şurası kimi nüfuzlu təşkilatların üzvü olmuş, ölkəmizi bu qurumlarda layiqincə təmsil etmişdir. Tanınmış alim dünyanın müxtəlif ölkələrində xidməti ezamiyyətlərdə olmuş, əldə etdiyi elmi nailiyyətlərə görə beynəlxalq mükafatlara layiq görülmüşdür.

Azərbaycanda elmin və su təsərrüfatının inkişafında səmərəli fəaliyyəti daim yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2014-cü il tarixli sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.

Görkəmli alimin əziz xatirəsi elm ictimaiyyətinin və su təsərrüfatı işçilərinin qəlbində hər zaman yaşayacaqdır.

**Allah rəhmət eləsin!**



# Su festivalı

## Bayram, yoxsa faciə



***Bəzi Cənub-şərqi Asiya ölkələrində hər il aprel ayında su festivalları ilə müşahidə olunan bayramlar keçirilir. Tailandda Sonqkran bayarmı isə izdihamına və nə qədər qəribə də olsa, qurbanlarının sayına görə daha məşhurdur.***

Tayların milli bayramı olan Sonqkran yeni ilin gəlişi kimi qeyd olunur. Tailandın böyük şəhərlərində minlərlə sakin şənliyə qatılaraq, sözün əsl mənasında əylənirlər. Ənənəyə görə, hər şey kütləvi rəqsdən sonra başlamalıdır. Ölkədə ən vacib milli bayram kimi qeyd olunan festivalın əsas cəhəti insanların bir-birini müxtəlif vasitələrlə sulamasıdır. Bu bayramda heç kimə rəhm və güzəşt yoxdur, hətta kiçik yaşlılara da.

Adətə görə bayram günü səhər məbədə gedib baş yumaq və dırnaqları tutmaq vacibdir. Asiyalılar düşünür ki, bununla üzərlərindəki mənfi enerjini atmış olurlar. Yeni ilə pozitiv əhval-ruhiyyədə başlamaq isə ili müsbət abhavada keçirmək üçün əsas şərt hesab olunur. İnsanların məhz bir-birini sulaması onların əyləncəli anlar yaşaması üçün kifayət edir.

Maraqlı əyləncəni izləmək üçün dünyanın dörd bir yanından minlərlə insan Tailanda axın edir. Bu müddət ərzində hakim dairələr kütləvi toplaşmaqla bağlı məhdudiyyəti müvəqqəti dayandırır və yollarda insanların sərbəst hərəkətinə icazə verirlər.



Maraqlıdır ki, ölkənin bir hissəsində insanlar su ilə əyləndikləri bir vaxtda digər bölgələrdə əhali son ilin ən böyük quraqlığı ilə üzləşib.

Hazırda su böhranı yoxsul, işsiz, və aztəminatlı ailələri daha böyük çətinliklərlə qarşı-qarşıya qoyub. Tailand hakimiyyəti quraqlığa baxmayaraq turistləri cəlb etmək üçün su festivallarının keçirilməsini dayandırmayıb. Ölkənin 77 bölgəsinin 27-də quraqlıq elan edilib və əhalinin yoxsul təbəqəsi içməli və suvarma suyunun çatışmazlığından əziyyət çəkir. Hakimiyyət rəsmiləri isə böhrandan çıxış yolunu su festivallarına turistləri cəlb etməkdə görür. Bu il hökumət suya qismən qənaət etmək üçün bayram günlərinin sayını 5 gündən 3 günə endirdi. Bu günlərdə ölkəyə gələn turistlərin sayı yarım milyondan çoxdur. Hökumət rəsmiləri bildirir ki, bayram günlərinin 2 gün azaldılması 5 milyard litr suyun "tapançalarda istifadəsiz qalmasına" səbəb olub.

Hər il böyük coşqu ilə qeyd olunan festival əyləncəli anları ilə yadda qalsa da bu il də qurbanlarsız ötüşməyib. Tailand Sağlamlıq və Koordinasiya Departamentinin açıqlamasında qeyd olunub ki, 11-13 aprel tarixlərində bayramların qeyd olunduğu küçə və meydanlarda 181 nəfər yol qəzasının qurbanı olub, 1777 nəfər xəsarət alıb. Baş vermiş 750 yol qəzasında 65 nəfər həlak olub. Hökumət tərəfindən əvvəlcədən ciddi tədbirlər görülsə də, festivalın keçirildiyi 3 gün ərzində sərxoş halda avtomobil idarə edən 64 min nəfər həbs olunub, 1500-dən çox avtomobil cərimə meydançasına aparılıb.

